## XAQANİ ŞİRVANİ TƏRƏFİNDƏN DEYİLƏN SÖZLƏR VƏ KƏLAMLAR



*Qızılın qiymətini məhək, sözün qiymətini söz sərrafı bilər.*

*Tamah zəncirini ancaq sağlam ağıl qıra bilər.*
*Çox möhnətin sonu bir gün səadətdir bu dünyada.*
*Qış gedər bahar gələr, bir adətdir bu dünyada.*

*Ədalət də eşq və şərab kimi ürəklərin pasını silər.*
*Hər kim qızıl yığıb töksə kisəyə,*
*Kisə tək boğazı keçər ilməyə.*

*İnsaflı cəza yersiz təltifdən yaxşıdır.*
*İstəsən güzgütək saf olsun ürək,*
*Sinəndən on şeyi atasan gərək:*
*Haram, qeybət, kin, paxıllıq, tamah,*
*Kibr, riya, həsəd, ədavət, kələk.*

*Kimin qızıldadır gücü, yəqin bil,*
*O, quldur, qızılın sahibi deyil.*

*Mənəm mənəm deyib öymə özünü,*
*Həmişə müxtəsər eylə sözünü.*

*Təmkinli insanlara səbr çox yaraşır.*

*Ağlın varsa, gücə, qızıla, nüfuza tabe olma!*
*Qoy sənə rəhbərlik edən ancaq təmiz vicdanın olsun.*

*Bir piyada olub düz getmək xoşdur,*
*Bir vəzir olub əyri getməkdən*

*Gözlə öz nəfsini, öz izzətini,*
*Tapdaq etməsinlər heysiyyətini.*

*Nə vaxtadək yanacaqsan möhnət evi yurdun üçün?*
*Sən deməklə Şirvan dönüb olmayacaq, bil, xeyirvan.*

*Övladdan da qiymətlidir məna dolu fikirlərin,*
*Ailədən əzizdir o mənalar ki, yaratmısan!*

*Qul verər zillətilə şahın adına zinət,*
*Sarımsaqla yoxlanar Çin müşkündə keyfiyyət*

*Xaqani vermişdir qəmdən imtahan,*
*Daha nə istəyir bu könül ondan?*

*Adam var ki, bilməz nədir qanacaq,*
*Fazil adamlara lağ edər ancaq.*

*Sənətkarlıq nədir? Bilmək istəsən,*
*Gəl, məndən sən onun sirrini öyrən!*
*Kamal mayasında bir zərrə idim,*
*Ağlımla Günəşə dönüb, yüksəldim.*
*İndi söz Günəşi aləmdə mənəm,*
*Şairlərdən üç qat ucadır rütbəm.*

*Ağıl kəməndini səmayə atsam,*
*Ayı bir top kimi tutaram asan.*

*Bir qamış axırda həsirə dönər,*
*Başqa bir qamışdan alınar şəkər.*

*Məhəmməd sonuncu peyğəmbər gəldi,*
*Qədri, şərəfisə ərşə yüksəldi.*

*Əvvəl papaq olar, sonrasa zinət,*
*Hər şey tamamlanar sonda, nəhayət.*

*Dizi məktəb olan kəsdə gərək bir hümmət olsun ki,*
*Önündə it kimi diz çökdürə bilsin o, aslanı.*

*Söz mülkünün məndən yaxşı yoxdur özgə şəhriyarı,*
*Bu dünyada tək mənimdir söz mülkünün ixtiyarı.*

*Əqlə ağır yük daşıdan mənim könlüm, bəyanımdır,*
*Qələm seyrə çıxan zaman söz üzəngi tutanımdır.*

*Getdi o dövranlar, getdi o dəmlər,*
*Ki, Cəmşid şah idi, div isə nökər.*
*Nə işlər törədir, yaxşı bax cahan,*
*Cəmşid qul olmuşdur, divsə hökmran.*